**Təhsil millətin gələcəyidir!**

*Heydər Əliyev*

# AZƏRBAYCAN MÜƏLLİMİ

Azərbaycan Respublikası Təhsil Nazirliyinin orqanı

8 iyul 2022-ci il №26 (8984)

www.muallim.edu.az muallim@edu.gov.az







# Olimpiada həyəcanı, MEDAL SEVİNCİ

**28** iyun — 3 iyul tarixlərində Bosniya və Herseqovinanın Sarayevo şəhərində Yeniyetmələrin 26-cı Balkan Riyaziyyat Olimpiadası təşkil edilib. Sözügedən yarışda məktəblilərimiz uğurla çıxış edərək 2 gümüş, 3 bürünc medal qazanıblar. Belə ki, Türkiyə Dəyanət Vəqfi Bakı Türk liseyinin IX sinif şagirdi Saleh Məmmədli və Təhsil Nazirliyinin tabeliyindəki Fizika, riyaziyyat və informatika təmayüllü liseyin IX sinif şagirdi Səid Bəkirov gümüş, Fizika, riyaziyyat və informatika təmayüllü liseyin IX sinif şagirdi İbrahim Kərimli, Türkiyə Dəyanət Vəqfi Bakı Türk liseyinin IX sinif şagirdi Telman Məmmədov və Heydər Əliyev adına Müasir Təhsil Kompleksinin IX sinif şagirdi Mirhəbib Əsgərov bürünc medal qazanıb.

Qeyd edək ki, şagirdlərimiz Yeniyetmələrin Balkan Riyaziyyat Olimpiadasında 2010-cu ildən iştirak edir. Bu günə kimi 3 qızıl, 21 gümüş, 25 bürünc olmaqla, ümumilikdə 49 medal əldə edilib.

Ardı səh.6

## Məktəblilərimiz böyük uğura imza atıblar



# Vətəndaşların NƏZƏRİNƏ!

Təhsil Nazirliyi müəllimlərin işə qəbulu və sertifikasiya prosesi ilə bağlı heç bir şirkət və ya tədris mərkəzi ilə əməkdaşlıq etmir və bu şirkətlərin fəaliyyətinə görə məsuliyyət daşımır. Təhsil Nazirliyi bildirir ki, vətəndaşlara hər hansı şirkət və ya şəxs tərəfindən verilən vəd müəllimlərin işə qəbulu və sertifikasiya prosedurları çərçivəsində heç bir rol oynamır. Belə hallarla qarşılaşan vətəndaşlardan Təhsil Nazirliyinin Çağrı Mərkəzinin 146-3 nömrəli telefonuna (yalnız iş günləri və saatları ərzində) zəng, elektron (*https://edu.gov.az/az/contact_us*) və rəsmi “WhatsApp” xidmətinə (0512067848) müraciət etmələri xahiş olunur.

## BU SAYIMIZDA

### SABAHa SEÇİLƏNlər




Yenə Heydər Əliyev Mərkəzi, yenə SABAH qrupları, yenə məzun günü. 8 ildir fəaliyyətdə olan SABAH qruplarının növbəti, 6-cı məzun gününə yenə Heydər Əliyev Mərkəzi ev sahibliyi etdi. Artıq 12 ali təhsil müəssisəsində 41 ixtisas, 650-dən çox professor-müəllim heyəti və 2 400-dən artıq tələbəni əhatə edir. 2021/2022-ci tədris ili üzrə SABAH qrupları məzunlarının sayı 830 nəfərdir. SABAH məzun tədbirinin hər il təkrarlanan daha bir ənənəsi - rəmzi SABAH açarı hazırkı məzunlardan növbəti ilin məzunlarına ötürülüb.

Mərasimin sonunda SABAH qruplarının himni səsləndirilib, xatirə fotosu çəkilib.

səh.4

### Ali təhsildə əlçatanlıq



Təhsil sahəsində çox böyük proses başlayıb. Nəticələrinə görə qiymətləndirsək, xüsusən son 5 ildə çox ciddi qərarlar verilib, həlledici addımlar atılıb. Sadəcə ali təhsili əhatə edən dəyişikliklərə nəzər salsaq, həm keyfiyyətə, həm də kəmiyyətə təsir edən yeniliklər görərik. Təhsil Nazirliyi Aparat rəhbərinin müavini, şöbə müdiri Yaqub Piriyevin sözlərinə görə, 2020 və 2021-ci illərdə ali və orta ixtisas təhsilinin əlçatan olması və bütün təbəqələrdən olan vətəndaşlara bərabər təhsil almaq imkanını təmin etmək üçün dövlət tərəfindən bir çox işlər görülüb.

səh.5

### Hökumətlərarası Təqaüd Proqramını qazananlar



Qloballaşmanın gətirdiyi yenilik və üstünlüklər təhsil sahəsindən də yan keçməyib. Təhsil sistemində yaranan innovasiyalar təhsilalanların imkanlarını da genişləndirir. Xüsusilə, xaricdə təhsilini davam etdirmək, bilik və bacarıqlarını, təcrübələrini artırmaq istəyən gənclərin sayı çoxalmaqdadır. Hökumətlərarası Təqaüd Proqramı (HTP) hər il tələbələrə dövlət hesabına təhsil almaq şansını verir. Belə ki, 2022-2023-cü tədris ili üzrə 149 nəfər Azərbaycan vətəndaşı bu proqram çərçivəsində Macarıstanın nüfuzlu universitetlərində təhsil almaq inkanı əldə edib.

səh.8

# Qalib ölkənin məzunları

## Ali təhsil müəssisələrində “Məzun günü”





### ADA Universitetində

İyulun 1-də ADA Universitetində “Məzun günü” keçirilib.

Tədbir universitetdə təhsil alan əcnəbi tələbələrin təmsil etdikləri dövlətlərin bayraqlarını səhnəyə gətirməsi və Azərbaycan Respublikasının Dövlət Himninin səsləndirilməsi ilə başlayıb.

Tədbirdə çıxış edən Milli Məclisin sədri Sahibə Qafarova qeyd edib ki, yarandığı ilk gündən indiyədək ADA Universiteti haqlı olaraq ölkəmizin ən nüfuzlu təhsil ocaqlarından biri sayılır. Universitetin tarixi o qədər böyük olmasa da, əlamətdar hadisələr və parlaq nailiyyətlər ilə zəngindir.

ADA Universitetinin rektoru Hafiz Paşayev məzunları təbrik edib, onlara gələcək fəaliyyətlərində uğurlar arzulayıb.



Qeyd olunub ki, 2021-2022-ci tədris ilində ADA Universitetində 7 bakalavr və 7 magistr ixtisası üzrə 471 tələbə məzun olur. Həmin məzunlardan 305-i bakalavr, 166-sı isə magistr proqramlarını təmsil edir.

Onların arasında bu il Azərbaycandan başqa 10 müxtəlif ölkəni təmsil edən 15 tələbə məzun olur. Həmin ölkələr sırasına ABŞ, Bolqarıstan, Fransa, Gürcüstan, Qazaxıstan, Maldiv adaları, Nigeriya, Rusiya Federasiyası, Sudan, Zimbabve daxildir.

Mərasimdə məzunlar adından Aytən Süleymanova və Elnur Məmmədov çıxış edərək ADA-dakı tələbə həyatının yaddaqalan anlarını bölüşüblər.

Tədbir iştirakçıları ABŞ-ın Corc Vaşinqton Universitetinin Mühəndislik və tətbiqi elmlər fakültəsinin dekanı Con Lak tərəfindən məzunlara ünvanlanan videomüraciəti dinləyiblər.

Tədbirdə iştirak edən təhsil naziri Emin Əmrullayev, BP-nin Xəzər regionunda kommunikasiya və xarici əlaqələr üzrə vitse-prezidenti Bəxtiyar Aslanbəyli və Moskva Dövlət Beynəlxalq Münasibətlər İnstitutunun dekanları Vasili Tkaçev və İqor Turuyev də məzunların sevincini bölüşüblər.

**AZƏRTAC**

### Azərbaycan Dövlət Neft və Sənaye Universitetində





İyulun 5-də Azərbaycan Dövlət Neft və Sənaye Universitetində (ADNSU) “Məzun günü” keçirilib. Tədbirdə ADNSU-nun rektoru, professor Mustafa Babanlı, Nəsimi Rayon İcra Hakimiyyətinin başçısı Asif Əsgərov, millət vəkilləri - Musa Qasımlı, Aydın Mirzəzadə, Hikmət Babaoğlu, YAP Nəsimi Rayon Təşkilatının sədri Azər Süleymanov, “Azneft” İstehsalat Birliyinin Baş direktoru Şahmar Hüseynov, BP-nin vitse prezidenti Bəxtiyar Aslanbəyli, AzEİ systems MMC-nin prezidenti İqor Yakovenko, “Prosol” QSC-nin həmtəsisçisi və sədri Babək Ağayev, “AzİI məzunları” İctimai Birliyinin sədri Hacı Nuran Hüseynov, universitetin professor-müəllim heyəti və tələbələr iştirak ediblər.

Dövlət himninin səslənməsi ilə başlanan tədbirdə ADNSU-nun rektoru, professor Mustafa Babanlı universiteti uğurla bitirən gəncləri bu əlamətdar gün münasibətilə təbrik edib, onlara gələcək fəaliyyətlərində uğurlar arzulayıb. Rektor universitet olaraq tələbə və məzunlarına hər zaman dəstək olmağa hazır olduqlarını deyib və həmçinin tələbələrə də bu təhsil ocağını bütün zamanlarda doğma ali təhsil müəssisəsi kimi sevməyi, ADNSU-nun adına layiq mütəxəssis kimi dövlətinə, xalqına xidmət etməyi tövsiyə edib.



Məzunları təbrik edən Nəsimi Rayon İcra Hakimiyyətinin başçısı Asif Əsgərov onlara gələcək həyatlarında uğurlar arzulayıb. AzİI-nin bütün dövrlərdə keyfiyyətli təhsili, həmçinin yetişdirdiyi ixtisaslı mütəxəssislərlə tanındığını xatırladan A.Əsgərov bu gün ADNSU-nun bu ənənəni uğurla davam etdirdiyini deyib. Başçı çıxışında ölkəmizdə gənclərə, onların savadlı və sağlam formalaşmasına hər zaman diqqət yetirildiyini vurğulayıb. Bildirilib ki, Prezident, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə belə sağlam, vətənpərvər gənclərin sayəsində Azərbaycanın igid oğulları 44 gün ərzində 30 ilə yaxındır düşmən tapdağında olan torpaqlarımızı işğaldan azad etdi.

Millət vəkili, ADNSU-nun İctimai Etimad Şurasının sədri Aydın Mirzəzadə ADNSU tələbələrinə, onların bilik və bacarıqlarına yaxşı bələd olduğunu deyib. O, məzunları, universitetin bütün kollektivini təbrik edərək gənclərə uğurlar arzu edib və onlara göstərilən etimadı doğruldacaqlarına ümidvar olduğunu bildirib.

Daha sonra universiteti əla qiymətlərlə bitirən tələbələrə fərqlənmə diplomları və xatirə hədiyyələri təqdim edilib. Ən yaxşı məzunların adı simvolik kötüyə həkk olunub.

Tədbir universitetin “Gənclik” mahnı və rəqs ansamblının çıxışı və tanınmış müğənnilərin ifaları ilə davam etdirilib.

# Qalib ölkənin məzunları

## Ali təhsil müəssisələrində "Məzun günü"

### Azərbaycan Dövlət İqtisad Universitetində








İyunun 30-da Azərbaycan Dövlət İqtisad Universitetində (UNEC) "Məzun günü" keçirilib.

Tədbir Dövlət himninin səsləndirilməsi ilə başlayıb.

Açılış nitqi ilə çıxış edən UNEC-in rektoru Ədalət Muradov 3478 bakalavr, 1678 magistr olmaqla, 5166 tələbənin məzun olduğunu deyib. Məzunları təbrik edən rektor, onları qarşıda yeni sınaqların gözlədiyini, bu parlaq gənclərin bütün sınaqların öhdəsindən layiqincə gələrək, uğur qazanacaqlarından əminliyini ifadə edib.

Tədbirdə iştirak edən təhsil naziri Emin Əmrullayev UNEC-in ali təhsil müəssisələri arasında özünəməxsus yeri olduğunu və ölkənin iqtisadi inkişafına dəyərli töhfələr verdiyini bildirərək, bilikli və bacarıqlı gənclərə daim ehtiyac olduğunu deyib. Məzunlara təbriklərini çatdıran təhsil naziri, onlara özlərini daim inkişaf etdirməyi tövsiyə edib.

"Məzun günü"ndə iştirak edən Fransanın Azərbaycandakı səfirliyinin əməkdaşlıq və mədəniyyət üzrə konsulu, Fransız İnstitutunun direktoru Kelle Jerome UNEC ilə Fransanın Montpellier Universiteti arasında 6 ildir ki, reallaşdırılan ikili diplom proqramının əhəmiyyətindən söz açıb.

Sonra UNEC-in Fransanın Montpellier Universiteti ilə ikili diplom proqramlarının məzunlarına həmin universitetin diplomları təqdim olunub.

"Məzun günü"ndə UNEC-i bakalavr səviyyəsi üzrə ən yüksək ortalama (99,58) ilə bitirən və adı UNEC-in Fəxri daşına həkk edilən Beynəlxalq İqtisadiyyat Məktəbinin (ISE) tələbəsi Nihad Paşazadə çıxış edib. Sonra bütün məzunların andiçmə mərasimi keçirilib və UNEC bayrağı III kursu ən yüksək ortalama ilə bitirən Beynəlxalq İqtisadiyyat Məktəbinin tələbəsi Ayan Nəbiyevaya təhvil verilib.

"Məzun günü" konsert proqramı ilə davam etdirilib.

### Azərbaycan Memarlıq və İnşaat Universitetində





"Belə bir günün şahidi ola bildiyim üçün qürur duyuram. Çox həyəcanlıyam. Böyük qızım Günay məzun olur. Özüm indiki İqtisad Universitetini bitirmişəm. Məzun olmaq mənə yad hiss deyil. İnsanın övladının məzun olması tamamilə fərqli hissdir. Elə onların məzun olduğu zaman da bizimkindən fərqlənir. Onlar qalib ölkənin məzunlarıdırlar".

Bunlar bir atanın ürəyindən süzülüb gələn qibtə qarışıq sevinc hissləridir. O gün orda Səməd Əhmədov kimi onlarla ata, ana vardı.

Gülnarə Mirzəyeva isə Azərbaycan İnşaat və Memarlıq Universitetinin 1600-dən çox bakalavr məzunundan, bu il universiteti fərqlənmə diplomu ilə bitirən, böyük bir tədbirdə millət vəkilləri və çoxsaylı rəsmi qonaqların şahidliyi ilə rektor Gülçöhrə Məmmədovanın dilindən "SAĞ OL" kəlməsi, əlindən valideyninə ünvanlanmış "Təşəkkürnamə" alan çoxsaylı məzunundan biridir. Şəhid İlqar Mirzəyevin əlaçı qızı bu gün bura qardaşı ilə gəlib. Amma qürurludur. Həm özünün nəticələrinə, həm də qəhrəman atasına ünvanlanan bir qucaq təşəkkür var əllərində.

#### Məzun günündə

Azərbaycan Memarlıq və İnşaat Universitetinin 46-cı məzun günü idi. Bu dəfəki məzun günü universiteti bitirən bakalavriat səviyyəsində 26 ixtisas üzrə 1596, magistratura səviyyəsində 42 ixtisaslaşma üzrə 312 tələbə olmaqla cəmi 1908 tələbə, hazırlığı bitirən 70 əcnəbi və təhsil müəssisəsinin nəzdində olan İnşaat Kollecindən məzun olanlara həsr olundu.

Builki məzunların arasında qazilər, Gülnarə İlqar qızı Mirzəyeva kimi şəhid övladı da vardı ki, Azərbaycan İnşaat və Memarlıq Universiteti onları xüsusi qiymətləndirdi.

Qeyd edək ki, 24 Vətən müharibəsi şəhidi və onlarla qazi universitetin tələbə və məzunudur.

#### "Tikinti meydançaları sizi gözləyir"

Pandemiyadan sonra ilk məzuniyyət tədbiri idi Azərbaycan Memarlıq və İnşaat Universiteti məzunlarının. Həm pandemiya dövründə məsafədən təhsilə, həm də pandemiyadan sonrakı dövrdə ənənəvi təhsilə keçidi uğurla başa vurmağın sevinci də aydın hiss olunurdu. Xüsusən, rektor Gülçöhrə Məmmədovanın məzunları təbrik çıxışında: "2021-2022-ci tədris ili fərqli idi. Necə ki, pandemiyada məsafəli təhsilə keçərkən çətinlik yaşadıq, eləcə də, elektron təhsildən ənənəvi təhsilə qayıdışın öz çətinlikləri oldu. Amma biz bu çətinliklərin öhdəsindən layiqincə gəldik.Tələbələrimiz də bu şəraitə tez adaptasiya oldu. Öz növbəmizdə onlara əlimizdən gələn köməyi elədik ki, tədris prosesində bizdən tələb olunan keyfiyyəti təmin edək".

Rektor verdikləri təhsilin keyfiyyətinə olduğu qədər diplom verdiyi məzunlarına da güvənir: "Tələbələrimiz çox gözəl bir





vaxtda bitirirlər universiteti. Ölkəmizin çox böyük sürətlə inkişaf etdiyi, işğaldan azad olunan torpaqlarımızda böyük şəhərsalma fəaliyyətinin, infrastruktur layihələrinin həyata keçirildiyi, quruculuq işlərinin geniş miqyas aldığı bir dövrdə əmək fəaliyyətinə başlayırlar. İnanıram ki, məzunlarımız əmək fəaliyyətində də özünü doğruldacaq, universitetimizdə əldə etdikləri bilik karyera pilləsində yüksəliş üçün yetərli olacaq. Qazandıqları biliklə ilk növbədə yaxşı mütəxəssis olacaq, universitetimizin başını uca edəcəklər. Əziz tələbələr, tikinti meydançaları sizi gözləyir. Əminəm ki, siz ölkəmizdə həyata keçirilən böyük işlərə öz töhfənizi verəcəksiniz".

#### "AzMİU-nun yetirmələri Qarabağdadır"

Təhsil nazirinin müavini Firudin Qurbanov da AzMİU məzunlarını təbrik edib. O, gənclərin tələbəlik illərinin təsadüf etdiyi dövrü xüsusi qeyd edib: "Siz tələbə adı qazananda ölkəmizin böyük bir hissəsi işğal altındaydı. Ancaq universiteti müstəqil, torpaqlarını düşmən işğalından azad etmiş bir ölkənin vətəndaşı olaraq bitirirsiniz. İşğaldan azad olunan torpaqlarda yeni şəhərlər salınır, yollar çəkilir, infrastruktur layihələri icra olunur, ağıllı kənd, ağıllı şəhər qurulur. Təhsil ocaqları tikilib istifadəyə verilir. Zəngilanda yeni məktəb artıq hazırdır. Şuşada, Ağdamda, Cəbrayılda yeni məktəblərin tikintisi davam edir. Bu proses hələ uzun müddət davam edəcək və təbii ki, burda sizin də fəal iştirakınız önəmlidir".

F.Qurbanov memarlığın inkişafında AzMİU-nun qatdığı töhfələri xüsusi qiymətləndirib: "AzMİU yarandığı gündən ölkə sənayesi üçün çox sayda dəyərli kadrlar yetişdirib. Həmin kadrların fəaliyyəti indi bütün ölkə ərazisində hiss olunur. Harda tikinti varsa, quruculuq işləri gedirsə, AzMİU-nun yetirmələri, məzunları orda fəaliyyət göstərirlər. Hazırda onlar Qarabağdadır. Ümid edirəm ki, istər tikinti sahələrində, istərsə də digər sahələrdə məzunlarımız özlərini ölkəmizin dəyərli vətəndaşları kimi göstərəcəklər".

Məzunları təbrik edənlər arasında AzMİU-nun ilk tələbələrindən olan Aydın Mirzəzadə, onun deputat həmkarı Jalə Əhmədova, həmçinin başqa rəsmi şəxslər də oldu.

Məzun günündə fərqlənmə diplomu alanlar, universitetin ictimai işlərində xüsusi fəallıqları ilə seçilənlər, ümumi orta müvəffəqiyyət göstəricisi yüksək olanlar təltif edildilər. Özü də, sadəcə tələbələr yox, onların valideynləri də. Belə ki, məzunlar təltiflərlə yanaşı, valideynlərinə ünvanlanmış "Təşəkkürnamə" də aldılar.

**Ruhiyyə DAŞSALAHLI**

# SABAHa SEÇİLƏNlər

## 830 SABAH qrupları məzunu üçün “Məzun günü” keçirildi

Yenə Heydər Əliyev Mərkəzi, yenə SABAH qrupları, yenə məzun günü. 8 ildir fəaliyyətdə olan SABAH qruplarının növbəti, 6-cı məzun gününə yenə Heydər Əliyev Mərkəzi ev sahibliyi etdi. Artıq 12 ali təhsil müəssisəsində 41 ixtisas, 650-dən çox professor-müəllim heyəti və 2 400-dən artıq tələbəni əhatə edir. 2021/2022-ci tədris ili üzrə SABAH qrupları məzunlarının sayı 830 nəfərdir.








Səbinə Xaliq



Fərəh Fazilova




Fizzə Məmmədova

### “Mən SABAHam”

Foyedə ənənəvi sərgi açılıb. Bu dəfəki də SABAH qrupu tələbələrinin əl işlərindən ibarət idi və “Mən SABAHAM” adlanırdı.

Sərgiyə bələdçilik edən tələbələr Rəssamlıq Akademiyasının tələbələri idi. Səbinə Xaliq orada Dekorativ sənət ixtisası üzrə təhsil alıb. Təhsil müəssisəsində SABAH qruplarında təhsil alan 17 məzundan biridir: “SABAH qruplarında təhsil almağı seçərkən bilirdim ki, yuxusuz gecələrim çox olacaq. Ancaq razıydım. Çünki yiyələnmək istədiym ixtisas üzrə daha yaxşı, daha keyfiyyətli təhsil almaq, daha dərin bilik sahibi olmaq istəyirdim.

Fərəh Fazilova da Rəssamlıq Akademiyasının məzunudur. İnteryer dizayner ixtisası üzrə təhsil alıb. Sərgidə həm də Memarlıq və İncəsənət Universiteti tələbələrinin əl işlərini təqdim edib. Sağ tərəfində öz tələbə yoldaşlarının hazırladığı Qarabağa həsr olunan interyer-dizayn həlləri, solunda isə AzMİU tələbələrinin “Avatar”ları idi. “Onlar layihələrini işləyəndə bu avatarlardan istifadə edərək öz imzalarını qoyurlar”, - deyir.

### “SABAHın məzunu-2022”

SABAH məzunları üçün düzənlənən “SABAHın məzunu 2022” mərasimində təhsil naziri Emin Əmrullayev iştirak edib. Nazir SABAH məzunlarını təbrik edərək deyib ki, ölkənin gələcəyi bacarıqlı və hazırlıqlı gənclərdən asılıdır. Ona görə də 2014-cü ildə Təhsil Nazirliyinin innovativ təşəbbüsü olaraq fəaliyyətə başlayan SABAH qrupları gənclər üçün bir çox baxımdan imkanlar deməkdir.

Emin Əmrullayev indiyədək ümumilikdə 3800-dək gənc mütəxəssisin SABAH məzunu olduğunu diqqətə çatdırıb.

SABAH qruplarının məzunlarının 50 faizindən çoxunun işlə təmin olunduğunu vurğulayan nazir bu gün məzun olan SABAH tələbələrinin böyük əksəriyyətinin elmi və əmək fəaliyyətinin işğaldan azad edilmiş ərazilərlə bağlı olacağına əminliyini də ifadə edib.

Məzunlara öz tövsiyələrini çatdıran nazir onları dövlətin yaratdığı bir çox imkanlardan vaxtında və düzgün istifadə etməyə çağırıb. “Gənclərin xarici ölkələrin nüfuzlu ali təhsil müəssisələrində təhsil almalarına dair 2022-2026-cı illər üçün Dövlət Proqramı” çərçivəsində yaradılan imkanları xatırladaraq SABAH məzunlarını bu proqram çərçivəsində magistratura təhsilindən yararlanmağa dəvət edib: “Bu ildən xaricdə təhsil proqramının növbəti layihəsi təsdiqlənib və SABAH məzunları üçün magistratura səviyyəsi üzrə xüsusi güzəştlər nəzərdə tutulub. Ümid edirəm ki, bu fürsətdən yararlanacaqsınız”.

### SABAHda seçilənlər

“Məzun günü” ən yüksək göstəriciləri ilə fərqlənən 12 SABAH məzunu təltif edilib. BDU tələbəsi Fizzə Məmmədova, UNEC tələbəsi Akif Qurbanov, ADU tələbəsi Məlahət Abbasova, ADNSU tələbəsi Ülvi Əhmədli, Rəssamlıq Akademiyasının tələbəsi Fərəh Rəhimli, BMU tələbəsi Qəndab Həsənova, ADPU tələbəsi İlahə Kərimova, AzTU tələbəsi Vüsal Əmirov, Mədəniyyət və İncəsənət Universitetindən Nəzrin Zeynalova, Musiqi Akademiyasından Leyla Zeynalova və AzMİU tələbəsi Turan Abdullayev universitet rektorları tərəfindən mükafatlandırılıblar.

Mükafatlandırılanlardan biri, ən yüksək göstərici ilə SABAH qruplarından məzun olan Fizzə Məmmədova “Azərbaycan müəllimi” qəzetinə deyib ki, seçilənlərdən olmağın üstünlükləri ilə yanaşı, bəzi çətinlikləri də olub: “Həyatımda əvəzolunmaz iz qoyan 4 il yaşadım. Hər biri bir universitet olan müəllimlərdən dərs aldım. Bu 4 ildə hər an SABAH ailəsinin fərdi olduğumu hiss etdim və bunun məsuliyyətini dərk etdim”.

Bakı Dövlət Universitetinin tələbəsi Tarix müəllimliyi ixtisası üzrə təhsilini 99.32 balla bitirir.

SABAH məzun tədbirinin hər il təkrarlanan daha bir ənənəsi - rəmzi SABAH açarı hazırkı məzunlardan növbəti ilin məzunlarına ötürülüb.

Mərasimin sonunda SABAH qruplarının himni səsləndirilib, xatirə fotosu çəkilib.

**Ruhiyyə DAŞSALAHLI**

## Təhsil naziri Lənkəranda vətəndaşları qəbul edəcək

Təhsil naziri Emin Əmrullayev 22 iyul 2022-ci il tarixində Lənkəran şəhərində Lənkəran, Astara, Lerik, Masallı, Cəlilabad və Yardımlı rayonlarında qeydiyyatda olan sakinləri qəbul edəcək. Qəbulda qeyd olunan rayonlarda müvəqqəti məskunlaşmış məcburi köçkünlər də iştirak edə bilərlər.

Qeyd olunan şəhər və rayonların sakinləri 1-15 iyul 2022-ci il (saat 18:00-dək) tarixlərində Təhsil Nazirliyinin Çağrı Mərkəzinin 146-6 nömrəli telefonuna (yalnız iş günləri və saatları ərzində) zəng, elektron *(https://edu.gov.az/az/contact_us)* və rəsmi “Whatsapp” xidmətinə (0512067848) müraciət etməklə qəbula yazıla bilərlər.

Qəbulda yalnız yuxarıda göstərilən tarixlərdə müraciət etmiş şəxslər iştirak edəcəkdir. Müvafiq qaydada müraciət etmiş və adları qəbula yazılanlar siyahısında olan şəxslər qəbulun keçirildiyi otağa şəxsiyyət vəsiqəsi əsasında buraxılacaqlar.

## Macarıstanın ölkəmizdəki səfiri ilə görüş

İyulun 6-da təhsil naziri Emin Əmrullayev Macarıstanın Azərbaycandakı missiyası bitməkdə olan səfiri Viktor Szederkenyi ilə görüşüb.

Nazir ölkəmizdə olduğu müddətdə iki ölkə arasında təhsil əlaqələrinin dərinləşməsinə, Azərbaycan və Macarıstan ali təhsil müəssisələri arasında birbaşa əməkdaşlığın qurulmasına verdiyi töhfəyə görə səfir Szederkenyiə təşəkkürünü bildirib.

Emin Əmrullayev 2022-2023-cü tədris ili üzrə Macarıstan dövləti tərəfindən 149 nəfər Azərbaycan Respublikası vətəndaşına təhsil təqaüdünün ayrılmasını yüksək qiymətləndirib.

## Azərbaycanda təhsilverənlərin və təhsilalanların hüquqlarının qorunmasına böyük önəm verilib



### Nazir müavini Avrasiya Təhsil İşçiləri Beynəlxalq Həmkarlar İttifaqları Birliyinin üzvləri ilə görüşüb

İyunun 30-da təhsil nazirinin müavini Firudin Qurbanov ölkəmizdə səfərdə olan Avrasiya Təhsil İşçiləri Beynəlxalq Həmkarlar İttifaqları Birliyinin üzvləri ilə görüşüb.

Nazir müavini çıxışında ölkəmizin müstəqillik dövründə inkişafı və güclənməsi üçün görülən işlər, milli təhsil quruculuğu sahəsində əldə olunan nailiyyətlər, təhsilin ayrı-ayrı sahələrinin inkişafı, təhsilin inkişafı üzrə Dövlət Strategiyasının həyata keçirilməsi ilə bağlı yerinə yetirilən tədbirlər, sürətlə modernləşən təhsil sisteminin üzərinə düşən vəzifələr, ölkəmizdə təhsil sahəsində həyata keçirilən islahatlar haqqında məlumat verib, bu sahədə əldə olunan uğurlardan bəhs edib. Firudin Qurbanov həmçinin torpaqlarımızın işğaldan azad edilməsində təhsil işçilərinin rolunu vurğulayıb və Türkiyənin ölkəmizə göstərdiyi dəstəyi xüsusi şəkildə qeyd edib.

Nazir müavini Azərbaycanda təhsil sistemində təhsilverənlərin və təhsilalanların hər birinin hüquqlarının qorunmasına böyük önəm verildiyini bildirib. Firudin Qurbanov müəllimlərin əmək şəraitinin yaxşılaşdırılması, əməyin stimullaşdırılması istiqamətində atılan ardıcıl addımları qeyd edərək bu sahədə beynəlxalq təcrübənin öyrənilməsinin vacibliyini önə çəkib.

Çıxışında nazir müavini Avrasiya Təhsil İşçiləri Beynəlxalq Həmkarlar İttifaqının XIV Forumunun Bakıda keçirilməsini yüksək dəyərləndirib.

Tədbirin sonunda nazir müavini qonaqların suallarını cavablandırıb.

## UNICEF-in Qlobal İllik Nəticələr Hesabatında ölkəmizin müsbət təcrübəsi qeyd olunub

UNICEF tərəfindən 2021-ci ildə dünya təhsil sistemində baş verən yeniliklərə dair qlobal illik nəticələr hesabatı dərc olunub. Hesabatda ölkəmizin təhsil sahəsinin bir sıra istiqamətləri üzrə əldə etdikləri nailiyyətlər qeyd olunub.

Belə ki, Azərbaycanda dövlət tərəfindən maliyyələşdirilən məktəbəqədər hazırlıq proqramının 5 yaşlıların 90 faizini əhatə etməsi sənəddə xüsusi şəkildə vurğulanıb. Eyni zamanda, ölkəmizin ucqar ərazilərində icra olunan icma əsaslı məktəbəqədər təhsilin inkişafına yönəlik layihənin miqyasının genişlənməsi nəticəsində 55 şəhər və rayonda 695 icma mərkəzi üzrə 850 icma əsaslı məktəbəqədər təhsil qrupunun yaradılması müsbət təcrübə kimi təqdim olunub. Hazırda bu qruplarda 16041 nəfər 3-4 yaşlı uşaq təhsilə cəlb olunub.

Hesabatda həmçinin Təhsil Nazirliyi və UNICEF arasında əməkdaşlıq çərçivəsində münaqişədən zərər çəkmiş 9 regionda məktəb əsaslı psixoloji sağlamlıq və psixososial dəstək layihəsinin həyata keçirilməsi yüksək qiymətləndirilib. Bu çərçivədə uşaq və yeniyetmələrin sosial və emosional öyrənmə bacarıqlarını inkişaf etdirmək üçün 4050 müəllimə təlimlərin təşkil olunduğu qeyd edilib.

Ətraflı məlumatı keçiddən *(https://www.unicef.org/media/121736/file/Global-annual-results-report-2021-goal-area-2.pdf)* əldə edə bilərsiniz.

# Ali təhsildə əlçatanlıq



Təhsil sahəsində çox böyük proses başlayıb. Nəticələrinə görə qiymətləndirsək, xüsusən son 5 ildə çox ciddi qərarlar verilib, həlledici addımlar atılıb. Sadəcə ali təhsili əhatə edən dəyişikliklərə nəzər salsaq, həm keyfiyyətə, həm də kəmiyyətə təsir edən yeniliklər görərik.

## Bu sahəni əhatə edən dəyişikliklər həm keyfiyyətə, həm də kəmiyyətə təsir edən yeniliklərdir

### Təhsildə əlçatanlığa xidmət edən qərarlar

Təhsil Nazirliyi Aparat rəhbərinin müavini, şöbə müdiri Yaqub Piriyevin sözlərinə görə, 2020 və 2021-ci illərdə ali və orta ixtisas təhsilinin əlçatan olması və bütün təbəqələrdən olan vətəndaşlara bərabər təhsil almaq imkanını təmin etmək üçün dövlət tərəfindən bir çox işlər görülüb. Belə ki, Nazirlər Kabinetinin müvafiq qərarları ilə təhsil müəssisələrində normativ təhsil müddətində ödənişli əsaslarla əyani təhsil alan və sosial baxımdan həssas əhali qrupuna aid edilən ailələrin üzvü olan tələbələrin 2020/2021-ci tədris ili üçün təhsil haqqı xərcləri dövlət büdcəsinin vəsaiti hesabına ödənilib.

Ölkə Prezidentinin əhalinin aztəminatlı təbəqələrindən olan şəxslərin təhsilə əlçatanlığını təmin etməyə, təhsil almaqda bərabər imkanlar yaratmağa və təhsilin əhatə dairəsini genişləndirməyə xidmət edən başqa bir sərəncamı ilə Təhsil Tələbə Krediti Fondu yaradılıb. "Təhsil Tələbə Krediti Fondunun vəsaiti hesabına təhsil tələbə kreditlərinin verilməsi Qaydası" Nazirlər Kabineti tərəfindən 2021-ci ildə təsdiq ediləndən sonra, yəni 2021/2022-ci tədris ilindən kreditlərin verilməsi prosesinə başlanılıb.

Bundan başqa, ali təhsil müəssisələrində təqaüd sistemi təkmilləşdirilib, dövlət hesabına maliyyələşən təqaüd yerlərinin sayı cari ilin martın 1-dən 16 min vahid, doktorantlara, ali, orta ixtisas və peşə təhsili müəssisələrində, həmçinin AMEA-nın magistratura səviyyəsində təhsil alan tələbələrə verilən təqaüdlər, ali məktəb tələbələri üçün Prezident təqaüdünün həcmi artırılıb. Y.Piriyevin sözlərinə görə, hər biri əhəmiyyətli təşəbbüs kimi qiymətləndirilən bu islahatları ölkə ictimaiyyəti də böyük rəğbətlə qarşılayıb: "Təqaüd alan tələbələrin sayının tələbələrin ümumi sayına olan nisbətinin 31 faizdən 2019/2020-ci tədris ilində 45 faizə, 2020/2021-ci tədris ilindən başlayaraq isə 50 faizdən az olmayan səviyyəyə çatdırılması bütövlükdə ali təhsilin əlçatanlığının artırılması və tələbələrin sosial müdafiəsinin yaxşılaşdırılması baxımından mühüm əhəmiyyət kəsb edib. Həmin sərəncamlar ölkədə yüksəkixtisaslı, peşəkar kadrların hazırlanmasına, təhsildə yüksək nəticələr əldə edən tələbələrin təqaüd almaları üçün əlavə imkanların yaradılmasına, ali təhsildə rəqabət mühitinin formalaşdırılmasına əhəmiyyətli dərəcədə təsir edib".

Eyni zamanda, orta ixtisas təhsili müəssisələrini bitirən və subbakalavr ixtisas dərəcəsi alan şəxslərə ali təhsil müəssisələrinin bakalavriat səviyyəsinə imtahansız qəbul olunmaq şəraiti yaradılıb və onlar dövlət sifarişi yerlərində də təhsil alırlar. Məsələn, ötən il 929 nəfər dövlət sifarişi yerlərində təhsil almaq imkanı qazanıb. Bu da dövlət sifarişli yerlərin 3.8 faizi deməkdir.

### Qiyabi təhsildə məhdudiyyət davam edir

Əyani təhsildə imkanlar genişləndikcə qiyabi təhsildə məhdudiyyətlər artır. Xüsusən, müəllimlik ixtisasları ilə bağlı qiyabi təhsil və orta ixtisas təhsili müəssisələrində müəllimlik üzrə bir sıra ixtisaslar üzrə kadr hazrlığının dayandırılması ölkəmizdə müəllim hazırlığına verilən önəmin göstəricisidir.

Ali təhsildə gedən prosesləri şərh edən Yaqub Piriyevin sözlərinə görə, 2014-cü ildən başlayan bu proses, yəni ali təhsil müəssisələrinə pedaqoji ixtisaslarda qiyabi təhsilalma forması üzrə qəbulun tamamilə dayandırılması, orta ixtisas təhsili müəssisələrinə bir sıra pedaqoji ixtisaslar üzrə, eləcə də magistratura səviyyəsində qiyabi təhsilalma formasına tələbə qəbulunun planlaşdırılması nəzərdə tutulmayıb.



### Bakalavriat səviyyəsində yeni məzmunlu ixtisas təsnifatı

Ali təhsilin bakalavriat səviyyəsində həlledici dəyişikliklər məhz 2019-cu ildə təsdiqlənən qərarlardan qaynaqlanır. Belə ki, həmin il bakalavriat səviyyəsi üzrə beynəlxalq təcrübəyə və müasir əmək bazarının tələblərinə uyğun yeni məzmunlu ixtisas təsnifatı Nazirlər Kabinetinin 2019-cu il 11 fevral tarixli Qərarı ilə təsdiq edilib. Növbəti, yəni 2020/2021-ci tədris ilində ali təhsil müəssisələrinə tələbə qəbulu məhz yeni təsnifata uyğun aparılıb.

Əvvəlki illərdə başlanılan bir sıra islahatların son 3 illik nəticəsinin rəqəmlərdə əksi də çox böyükdür. Məsələn, bakalavriat səviyyəsində tədrisi ingilis dilində aparılan ixtisasların sayı 11-dən 69-a qədər artırılıb.

XXI əsrin səriştə və bacarıqları dəyişdikcə, əmək bazarında tələb olunan ixtisaslar da dəyişir. Zamanın və bazarın tələbinə uyğun kadr hazırlığını təmin etməyə çalışan Təhsil Nazirliyi isə bu dəyişikliyi vaxtında nəzərə alır. Nəticədə dəyişikliklər ixtisaslardan tutmuş tədris planına qədər hər yerdə əksini tapır. Məsələn, "İnformasiya təhlükəsizliyi" ixtisası "xüsusi təyinatlı" ixtisaslar qrupundan çıxarılıb. Artıq bu ixtisas üzrə 11mülki ali təhsil müəssisələrinə də qəbul aparılır.

Aqrar sahənin inkişafının dəstəklənməsi məqsədilə kənd təsərrüfatı ixtisasları üzrə qəbulun əhatə dairəsi genişləndirilib. Artıq ADAU, LDU, NDU, eləcə də bir sıra regional kolleclərə kənd təsərrüfatı ixtisasları qrupuna aid ixtisaslar üzrə tələbə qəbulu planlaşdırılır.

Hazırda bu ixtisaslar üzrə bakalavriat səviyyəsinə tələbə qəbulu 85 faiz, magistratura səviyyəsində isə 75 faiz dövlət sifarişi əsasında aparılır.

Məlum olduğu kimi, hər il tələbə qəbulu üzrə proqnoz yerlərin sayı ali və orta ixtisas təhsili müəssisələrinin mövcud potensialı (elmi-pedaqoji kadr potensialı, tədris metodiki, maddi-texniki və tədris laboratoriya bazası) nəzərə alınmaqla onlar tərəfindən verilən sifarişlərə əsasən Təhsil Nazirliyi tərəfindən formalaşdırılır və təsdiq üçün Nazirlər Kabinetinə təqdim olunur. Ali təhsil müəssisələrinin bakalavriat və magistratura, tibb təhsili üzrə əsas təhsil və rezidentura səviyyələrinə dövlət sifarişi isə Azərbaycan Prezidentinin 10 fevral 2010-cu il tarixli Fərmanına əsasən, müvafiq qurumların təklifi əsasında ölkə üzrə İqtisadiyyat Nazirliyi tərəfindən formalaşdırılır.

### Yeni tədris ilinin qəbul planı

Yaqub Piriyevin sözlərinə görə, 2022/2023-cü tədris ili üçün ali və orta ixtisas təhsili müəssisələrinə tələbə qəbulu planı artıq təsdiq olunub. Yeni plan son 5 il üzrə müvafiq statistik məlumatların təhlili əsasında hazırlanıb.

2022/2023-cü tədris ilində ali təhsil müəssisələrinin bakalavriat səviyyəsinə tələbə qəbulu üzrə proqnoz yerlərin sayı ötən tədris ilinə nisbətən 51528 yerdən 53549 yerə qədər, yəni 4 faiz, dövlət sifarişi üzrə isə otən ilə nisbətən 3.2 faiz artıb. Tələbə qəbulu proqnozunun 84.2 faizi dövlət, 15.8 faizi isə qeyri-dövlət ali təhsil müəssisələrinə nəzərdə tutulub. Ötən il bu nisbət müvafiq olaraq 84.8 faiz və 15.2 faiz olub.

Qeyd etməliyik ki, 2019/2020-ci tədris ilindən başlayaraq dövlət sifarişi yerlərin sayı əhəmiyyətli dərəcədə artıb. Belə ki, 2018/2019-cu tədris ilinə nisbətən dövlət sifarişi yerlərin sayı 66.1 faiz artıb və hazırda 24602 yer təşkil edir. Ötən illərin təhlilləri göstərir ki, ali təhsil müəssisələrinə qəbul olunan tələbələrin hər ikisindən biri (50 faiz) dövlət sifarişi əsasında təhsil almaq imkanı qazanıb.

### Bir ildə İT ixtisaslarına proqnoz yerləri 13 faiz, dövlət sifarişi əsasında tələbə qəbulu 11.4 faiz artıb

Müasir dünyada idarəetmənin bütün səviyyələrində informasiya texnologiyalarının tətbiqi və informasiya təhlükəsizliyinin təmin olunması böyük əhəmiyyət kəsb edir. Ölkəmizdə bu sahədə ciddi kadr hazırlığına tələbat olduğundan "Təbiət", eləcə də "Texniki və texnoloji" ixtisas qrupuna daxil olan İT ixtisaslarına proqnoz yerlərinin sayı və dövlət sifarişi əsasında tələbə qəbulu 2022/2023-cü tədris ilində ötən tədris ilinə nisbətən müvafiq olaraq 13 və 11.4 faiz artıb. Bu artım proqnoz yerlərinin sayı və dövlət sifarişi əsasında müvafiq olaraq "Kompüter elmləri" ixtisası üzrə 3.9 və 8.3 faiz, "Kompüter mühəndisliyi" ixtisası üzrə 17 və 8.3 faiz, "İnformasiya texnologiyaları" ixtisası üzrə 9.5 və 11.9 faiz, "İnformasiya təhlükəsizliyi" ixtisası üzrə isə 31.5 və 21.2 faiz olub: "Xüsusi olaraq qeyd etməliyəm ki, 2021/2022-ci tədris ilində İT ixtisaslarında qəbul planı birinci yerləşdirmədə 99.1 faiz, dövlət sifarişi üzrə isə 105.7 faiz icra olunub. 105.7 faizə aydınlıq gətirərək qeyd etmək istərdim ki, bu, Nazirlər Kabinetinin 98 nömrəli qərarının tətbiqi ilə mümkün olub. Həmin qərara əsasən, dövlət sifarişi yerləri üzrə tələbə qəbulunda müsabiqə nəticəsində boş qalan yerlərə ödənişli əsaslarla qəbul olunanların yerləşdirilməsini nəzərdə tutur. Ümumiyyətlə, Texniki və texnoloji ixtisaslar qrupunda ötən ilə nisbətən artım 8.5 faiz, kənd təsərrüfatı ixtisaslar qrupunda isə 17.2 faiz olub".

Y.Piriyev sözügedən ixtisaslarda son 5 tədris ilində İT ixtisasları üzrə proqnoz yerləri və dövlət sifarişinə diqqət çəkib. Onun sözlərinə görə, burada bakalavriat və magistratura səviyyələrində davamlı artım dinamikası müşahidə olunur. Belə ki, bakalavriat səviyyəsində proqnoz yerləri üzrə artım 90.9 faiz, yəni 1.91 dəfə, dövlət sifarişi üzrə isə 287.3 faiz, yəni 3.9 dəfə olub. Magistratura səviyyəsində proqnoz yerlər üzrə artım 192.7 faiz, 2.92 dəfə, dövlət sifarişi üzrə isə 269.2 faiz, yəni 3.69 dəfə təşkil edib. Bu, son 5 il ərzində qeydə alınan artımdır **(Şəkil 1.)** .




Şəkil 1.

### 4 beynəlxalq ikili diplom proqramı həyata keçirilir

Ali təhsil sahəsində ən böyük layihələrdən biri də 2019-cu ildən icrasına başlanılan "2019-2023-cü illər üçün Azərbaycan Respublikasında ali təhsil sisteminin beynəlxalq rəqabətliliyinin artırılması üzrə Dövlət Proqramı"dır. Əsas məqsədlərindən biri ən qabaqcıl elmi nailiyyətlərdən, innovativ təlim-tədris texnologiyalarından yararlanaraq, ölkəmizdə yeni nəsil mütəxəssislərin yetişdirilməsi olan bu sənəd ali təhsil sisteminin müasirləşdirilməsini nəzərdə tutur. Artıq 3 ildir təhsildə məzmun və keyfiyyət göstəricilərinin beynəlxalq ikili diplom proqramları ilə inkişafının yolu açılıb: "Məlum olduğu kimi, Dövlət Proqramı çərçivəsində 5 beynəlxalq ikili diplom proqramının təsisi nəzərdə tutulub. Hazırda yerli ali təhsil müəssisələri və nüfuzlu xarici ali təhsil müəssisələri arasında 4 beynəlxalq ikili diplom proqramı həyata keçirilir".

Y.Piriyev diplom proqramları ilə bağlı məlumat verərək deyib ki, onlardan ikisi ABŞ-ın Corc Vaşinqton Universitetilədir (CVU) və magistratura səviyyəsində icra olunur.

Azərbaycan Dövlət Pedaqoji Universiteti ilə birgə reallaşdırılan proqram "Təhsil və insan kapitalının inkişafı" istiqaməti üzrə həyata keçirilir. Bu beynəlxalq ikili diplom proqramı üzrə hazırda 49 tələbə təhsil alır. Növbəti tədris ili üçün 41 tələbənin qəbulu nəzərdə tutulub.

ADA Universiteti ilə olan diplom proqramı isə "Kompüter elmləri və verilənlərin təhlili" və "Elektrik mühəndisliyi" istiqamətini əhatə edir və hazırda 39 tələbə təhsil alır. Növbəti tədris ili üçün 35 tələbənin qəbulu nəzərdə tutulub.

Üçüncü diplom proqramı Koreyanın İnha ali təhsil müəssisəsi ilə Bakı Mühəndislik Universitetinin "İnformasiya texnologiyaları", "Elektronika mühəndisliyi", "Elektrik mühəndisliyi", "İnşaat mühəndisliyi" ixtisasları üzrə bakalavriat səviyyəsində həyata keçirilir. 160 nəfər beynəlxalq ikili diplom proqramı üzrə təhsil alır. Növbəti tədris ili üçün 128 tələbənin qəbulu nəzərdə tutulub.

Azərbaycan Dövlət Aqrar Universiteti (ADAU) isə Türkiyənin Ege Universiteti ilə bakalavriat səviyyəsində beynəlxalq ikili diplom proqramına başlayıb. "Aqronomluq", "Aqromühəndislik", "İqtisadiyyat", "Bitki mühafizəsi" ixtisasları üzrə həyata keçirilən proqrama qəbul kvotası 120 nəfərdir. 2021/2022-ci tədris ilində ikili diplom proqramına 74 nəfər qəbul olub. Növbəti tədris ili üçün 4 ixtisas üzrə 120 tələbənin qəbulu nəzərdə tutulur.

Y.Piriyev bildirib ki, Dövlət Proqramı çərçivəsində nəzərdə tutulan digər 5-ci proqramın təsis olunması istiqamətində işlər həyata keçirilir.

### Magistraturada yeni məzmunlu təhsil proqramları tətbiq olunur

Təhsil Nazirliyinin təşəbbüsü ilə ötən tədris ilindən başlayaraq magistratura səviyyəsində SABAH qrupları üzrə ölkəmizin 7 aparıcı ali təhsil müəssisəsində 8 yeni məzmunlu təhsil proqramları tətbiq olunur.

"Azərbaycan Respublikasında ali təhsil müəssisələrində və magistratura səviyyəsi üzrə Azərbaycan Milli Elmlər Akademiyasında yeni maliyyələşmə mexanizminin tətbiqi ilə bağlı dövlət sifarişi üzrə təhsil müəssisələrinin bakalavriat, magistratura, doktorantura (dissertantlıq istisna olmaqla), əsas (baza ali) tibb təhsili və rezidentura səviyyələrində, Azərbaycan Milli Elmlər Akademiyasının magistratura səviyyəsində kadr hazırlığının maliyyələşdirilməsi Qaydaları"na dəyişiklik edilib. Nazirlər Kabinetinin 19.04.2021-ci il tarixli 98 nömrəli qərarı ilə edilən həmin dəyişikliklərə əsasən, 2021\2022-ci tədris ilində boş qalmış dövlət sifarişli 789 yerə ödənişli əsaslarla qəbul olunan şəxslər yerləşdiriliblər. Beləliklə, mülki ali təhsil müəssisələrinə dövlət sifarişi üzrə plan yerləri 100, magistratura səviyyəsi üzrə isə 98.5 faiz dolub.

Qeyd etməliyik ki, əvvəlki illərdə dövlət sifarişi üzrə boş qalan yerlərə ödənişli əsaslarla qəbul olunan şəxslər yerləşdirilmirdi.

**Ruhiyyə DAŞSALAHLI**

# Batmanda Qarabağ parkı

Türkiyənin Batman vilayətində “Qarabağ” parkının açılışı olub. Açılış mərasimində Batman Enerji Zirvəsi - 2022 Beynəlxalq konfransında iştirak üçün Türkiyədə olan Azərbaycan Dövlət Neft və Sənaye Universitetinin (ADNSU) rektoru, professor Mustafa Babanlı, Batman Universitetinin rektoru, professor İdris Demir, Batman valisi Ekrem Canalp, Türkiyənin dövlət adamları, yerli ictimaiyyət təmsilçiləri və Batman Universitetinin professor-müəllim heyəti iştirak edib.



Açılış mərasimində çıxış edən Batman valisi Ekrem Canalp Türkiyə-Azərbaycan qardaşlığının və bu iki ölkə arasındakı tarixi bağların sarsılmaz olmasından danışıb. O, qeyd edib ki, bu gün Türkiyədə Qarabağ parkının açılması iki qardaş ölkənin birliyinin, məhəbbətinin nümunəsidir.

ADNSU-nun rektoru, professor Mustafa Babanlı belə möhtəşəm bir törəndə - Azərbaycanın 44 günlük Vətən müharibəsindən və tarixi qələbəsindən sonra Türkiyədə Qarabağ parkının yaradılmasından və bu açılış mərasimində şəxsən iştirak etməsindən məmnun olduğunu bildirib. Türkiyə-Azərbaycan qardaşlığının əbədi olduğunu, belə əsaslı layihələrin bu dostluğu daha da yüksək zirvəyə ucaltdığını deyən rektor, professor Mustafa Babanlı bundan sonra da bütün dünyanın iki qardaş ölkənin necə inkişaf etməsinin, əbədi birliyinin şahidi olacağını vurğulayıb.

Batman Universitetinin rektoru, professor İdris Demir yeni yaradılan Qarabağ parkını Azərbaycan və Türkiyə birliyinin növbəti nişanəsi adlandırıb. O, çıxışında Azərbaycanla Türkiyənin bütün sahələrdə əlaqələrinin güclü olmasından söz açıb. Professor İdris Demir qeyd edib ki, bu gün siyasi-diplomatik, iqtisadi və mədəni sahələrdə olduğu kimi, Azərbaycan ali təhsil müəssisələri ilə, o cümlədən ADNSU ilə sıx əməkdaşlıq əlaqələri mövcuddur. İdris Demir bundan sonra da əməkdaşlığın bütün istiqamətdə daha da uğurla inkişaf edəcəyinə, yeni-yeni layihələrin reallaşacağına əminliyini bildirib.

Rəsmi hissə və bədii proqramdan ibarət olan açılış mərasimi sonra musiqi nömrələri ilə davam edib.

Onu da qeyd edək ki, park ümumilikdə 15 min 397 kvadratmetr ərazini əhatə edir, müasir arxitektura əsasında qurulub. Burada uşaq əyləncə məkanı, istirahət yerləri, fəvvarələrdən ibarət bölmələr və s. qurulub. Məkanda, həmçinin sərgi yerləri ilə yanaşı, Azərbaycanın yeddi məşhur incəsənət ustasının əsərləri də yer alıb.

# Olimpiada həyəcanı, MEDAL SEVİNCİ

## Məktəblilərimiz böyük uğura imza atıblar



⇦ Əvvəli səh.1

Serbiyanın paytaxtı Belqrad şəhərində onlayn keçirilən VII Avropa Coğrafiya Olimpiadasından növbəti uğur əldə edilib. Belə ki, 11 ölkədən məktəblilərin qatıldığı müsabiqədə Tərtər rayonu Həbib Hüseynov adına Mamırlı kənd tam orta məktəbinin XI sinif şagirdi Murad Qarayev bürünc medala layiq görülüb.

Sözügedən olimpiada 2015-ci ildən etibarən keçirilir. Şagirdlərimiz bu olimpiadaya üçüncü dəfədir ki, qatılıb. Bu günədək sözügedən müsabiqədə 3 bürünc medal əldə edilib.

Qeyd edək ki, olimpiadaya qatılan məktəblilərimizin hazırlıq prosesi Təhsildə inkişaf və innovasiyalar üzrə qrant müsabiqəsi çərçivəsində qalib olmuş “Beynəlxalq Coğrafiya Olimpiadalarına hazırlıq” layihəsi əsasında həyata keçirilib. Layihə iştirakçıları əvvəlki tədris illərinin Respublika fənn olimpiadaları qalibləri arasından seçilib.

# Şagirdlərimiz gimnaziyamıza 5 medal gətirib



*Dünyanı dəyişdirmək üçün istifadə edəcəyimiz ən güclü silah təhsildir. Ümummilli liderimiz Heydər Əliyev demişdir: “Təhsil millətin gələcəyidir”.*

Gələcəyimizin memarı isə bu günün şagirdləridir. Hazırda Səttar Bəhlulzadə adına Xarici Dillər Təmayüllü Respublika Gimnaziyasında şagirdlərimizin və pedaqoji kollektivimizin birgə səyi sayəsində böyük işlər görülür. Bu yaxınlarda keçirilən Lütfizadə adına Məntiq Olimpiadası da Lütfizadə irsinin şagirdlər arasında təbliği, həmçinin onların məntiqi düşünmə, yaradıcı istedad və qabiliyyətlərinin aşkara çıxarılması istiqamətində mühüm rol oynayan önəmli olimpiada məktəblilər üçün əsil bilik meydanına çevrildi.

Qeyd edim ki, Lütfizadə adına Məntiq Olimpiadası paytaxtımızda Azərbaycan və rus bölmələri üzrə V sinif şagirdləri arasında keçirildi. Nəticədə bu olimpiadada şagirdlərimiz gimnaziyamıza 5 medal (2 qızıl, 1 gümüş və 2 bürünc) gətirdi.

Şagirdlərimizdən Zəkiyeva Fidan Sahib qızı, Hacıyev Cəlal Kənan oğlu qızıl, Məmmədov Əli Tural oğlu gümüş, Cəfərov Nihat Rəşad oğlu, Şərifova Ayan Sayad qızı isə bürünc medal qazanmışlar.

Bu günlərdə olimpiadada uğur qazanan şagirdlərimizlə görüşdüm. Qızıl medalın mükafatçısı Fidan Zəkiyeva öz hisslərini mənimlə belə bölüşdü: “Mən uğur qazanmaq üçün çox çalışdım... Məqsədimə də çatdım. Növbəti qızıl medalın mükafatçısı Cəlal Hacıyev isə belə dedi: “Mən hələ aşağı siniflərdən məntiqlə maraqlanırdım. Məntiqlə bağlı kitab vəsaitlərindən, test banklarından çox istifadə etmişəm. Unutmamalıyıq ki, bütün uğurların təməlində əzmkarlıq, məsuliyyət və çalışqanlıq durur”.

Gümüş medalın mükafatçısı Əli Məmmədov fikirlərini belə ifadə etdi: “Bu uğuru gimnaziyamızın müəllimləri sayəsində qazandım və onlara minnətdaram. Həm də anamın və müəllimlərimin gözlərində gördüyüm inam məni bu uğura apardı”.

Bürünc medalın mükafatçısı Nihad Cəfərov bildirdi: “Mənim məntiqə böyük marağım var. Dərsdənkənar vaxtlarda məntiqlə bağlı müxtəlif müəlliflərin testlərini işləyirəm. Bir sözlə Məntiq fənnini çox sevirəm.

Bürünc medalın mükafatçısı Ayan Şərifova isə uğurunun sirlərini belə açıqladı: “Bu uğuru müəllimlərimin və valideynlərimin sayəsində qazanmışam. Onlara çox minnətdaram”.

Bəli, gimnaziyamız üçün bu uğurlar hələ son deyil. Bundan sonra da gimnaziya rəhbərliyinin və müəllimlərin birgə səyi nəticəsində gələcəkdə uğurlarımızın sayını daha da artıracağıq.

**Gülnar HƏSƏNOVA,**
*S.Bəhlulzadə adına Xarici Dillər Təmayüllü Respublika Gimnaziyasının müəllimi*

# Təhsildə yeni yanaşmalar

*Son illər təhsil sahəsində aparılan keyfiyyət dəyişikliklərinin əyani nümunəsi kimi inkişaf və innovasiya xarakterli layihələrin, müsabiqələrin həyata keçirilməsi müsbət ənənəyə çevrilib. Bu müsabiqələrin əsas hədəfi inkişaf əsaslı və innovativ xarakterli təşəbbüslərin dəstəklənməsi və həyata keçirilməsinə nail olunmasıdır. Qalib layihənin müəllifi “Azərbaycan müəllimi”nə öz hədəf və axtarışları barədə fikirlərini bölüşüb.*

**V Qrant müsabiqəsi qalibinin uğur hekayəsi**

## “Məktəbli dron mühəndisləri”



Zaqatala rayon M.Musayev adına Dağlı kənd tam orta məktəbin müəllimi Təranə Cumayeva Təhsil Nazirliyi tərəfindən keçirilən Təhsildə inkişaf və innovasiyalar üzrə V Qrant müsabiqəsinin fərdi kateqoriyası üzrə “Məktəbli dron mühəndisləri” layihəsi ilə qalibi olub. T.Cumayeva layihəsinin hədəfləri barədə danışır:

- İnteqrasiya əsasında öyrənən şagirdlərin uğurları fənləri ayrı-ayrılıqda öyrənən təhsilalanların səviyyəsindən yüksəkdir. Müasir dövr müstəqil həyata atılan hər bir gəncdən test həll etmək bacarığını yox, problem həll edə bilmək, öz alternativ həll yollarını təklif edə bilmək bacarığını tələb edir. Bu isə gələcək peşə və ixtisas seçiminə düzgün yönlənmədə çox vacibdir. İnteqrativ təhsilin əsasını təhsilalanların yaşadıqları cəmiyyətin gerçək problemlərini həll edərək lazımi bilik, səriştə və bacarıqlara yiyələnməsi təşkil edir.

Beləliklə, inteqrativ təhsilli şagirdlər erkən yaşdan başlayaraq məktəbdə yalnız gələcəkdə faydalı olacaq bilik əldə etməyəcəklər, həm də artıq məktəbli partasından dünyanı və cəmiyyəti başa düşmək, bu və ya digər problemin səbəbini öyrənmək, həll etmək yollarını necə axtarmağı öyrənəcəklər.Təhsildə inteqrativ yanaşmanın tətbiqi ona gətirir ki, təhsilalanlar düşünülmüş riskləri qəbul edir, bu isə komanda işini qəbul etmələrinə və yaradıcı proses vasitəsi ilə işləmələrinə səbəb olur.

Müasir texnologiyalar, süni intellekt həyatımızın bir çox sahələrində - təhsildən müdafiə sənayesinə qədər sürətlə inkişaf etməkdədir. Azərbaycan gəncliyi də bu prosesdə - 3D texnologiyası, dron texnologiyası, robototexnika, kodlaşdırmada yaxından iştirak edir. Dron texnologiyası günümüzdə o qədər inkişaf edib ki, biz onların uğurlu tətbiqinə, hətta hərbi meydanda da şahidi olduq. Hər birimiz bilirik ki, 44 günlük Vətən müharibəsi dövründə tarixi Zəfər qazanmağımızda pilotsuz uçuş aparatlarının böyük rolu olmuşdur. Ona görə də dron mühəndisliyini dövrümüz üçün aktual hesab edirəm.

3D çapı, dron texnologiyasının təhsilalanlar üçün müsbət üstünlükləri vardır:

Təhsilalanların gələcək peşəkar inkişafı, onların həyat yollarını müəyyənləşdirmək istiqamətində kömək olacaq, müasir texnologiyalara olan marağını daha da artıracaq, şagirdlər öz gələcəklərini planlaşdıracaq və yaşadıqları dövrə uyğun ixtiralar etmək üçün istiqamətlənəcəklər, öz bacarıqlarına uyğun olaraq, təhsil aldıqdan sonra inkişaf və tərəqqi istiqamətini müəyyənləşdirə biləcəklər. Bizim layihə bölgələrdə 21-ci əsr bacarıqlarını, 3D çapı, dron texnologiyasını şagirdlərimiz üçün əlçatan edəcək.

Layihənin məqsədi təhsilalanlara 21-ci əsr bacarıqlarını layihə əsaslı öyrənmə mühitində aşılamaqla müasir texnologiyalara yiyələnmək, təsilalanlarımıza istehsal təfəkkürünü, gənclərimizi istehlakdan istehsala yönləndirməklə mühəndis-dizayn həllərinin prototipləşdirilməsi istiqamətində bilik və bacarıqlar formalaşdırmaq, dron texnologiyası proqram təminatını öyrənməklə yanaşı, praktik işlər həyata keçirməkdir.

Layihənin vəzifələrinə bölgələrdə XXI əsr bacarıqlarının, 3D çapı, dron texnologiyasının inkişafı məqsədilə Zaqatala rayon məktəbliləri arasından hədəf qrupu olacaq 15 nəfər təhsilalanın seçilməsi, təlim materiallarının hazırlanması, təlimlərin təşkil edilməsi, layihəyə cəlb olunmuş təhsilalanlar arasında həvəsləndirici müsabiqənin təşkil olunması daxildir.

**Oruc MUSTAFAYEV**

# Uşaq-gənclər idman-şahmat məktəbinin idmançıları Avropa çempionu olub

27 iyun - 3 iyul 2022-ci il tarixlərində İtaliyanın paytaxtı Roma şəhərində güləş idman növü üzrə gənclər arasında U-20 Avropa çempionatı keçirilib.

Qadın güləşi üzrə Azərbaycan yığma komandasının tərkibində yarışa qatılan Abşeron rayon ixtisaslaşdırılmış olimpiya ehtiyatları uşaq-gənclər idman-şahmat məktəbinin idmançıları Elnurə Məmmədova (55 kq), Birgül Sultanova (62 kq) qızıl, Mərziyyə Sadıqova (72 kq) isə gümüş medal qazanıb.

Çempionatda 6 nəfər idmançı ilə təmsil olunan qadınlardan ibarət Azərbaycan milli yığma komandası 2 qızıl, 2 bürünc medalla komanda hesabında və medal əyarına görə rekord nəticə əldə edib.

Qalib idmançıları təbrik edir, yeni uğurlar arzulayırıq!




## “AZƏRBAYCAN MÜƏLLİMİ”

**Qəzet 1934-cü ildən çıxır**

**Baş redaktor**
Sarvan İbrahimov 538-21-55

**Mühasibatlıq** 539-67-74
**Reklam və elanlar** 539-20-77 (tel./faks)

**Ünvan:** AZ-1100, Bakı şəhəri, Yasamal rayonu, Mətbuat prospekti, 23 L, 5-ci mərtəbə

Qəzet “Azərbaycan müəllimi”nin kompüter mərkəzində yığılır və “Azərbaycan nəşriyyatı” MMC-də çap olunur

Qəzet hər həftənin cümə günü çıxır

**Bank hesabımız**
Azərbaycan Beynəlxalq Bankı Şərifzadə filialı
Kodu: 805142 VÖEN: 9900001881
M/h: AZ 03 NABZ 01350100000000002944
S.W.I.F.T.: IBAZAZ 2X

“Azərbaycan müəllimi” qəzeti redaksiyası
Hesab № AZ80 IBAZ38060019443164986350
VÖEN: 1300397831

**Lisenziya** № 022327, **İndeks:** 0003, **Tiraj** 4082 **Sifariş** 1922

**Məsul növbətçi:** S.Kərimova

# Etibarsız sayılır

**Azərbaycan Dövlət Neft Akademiyası** tərəfindən 2008-ci ildə Kərimova Günel Sərvər qızına verilmiş BC-112943 nömrəli bakalavr diplomu və əlavəsi itdiyi üçün etibarsız sayılır.

**4 nömrəli Bakı Peşə Məktəbi** (indiki Sənaye və İnnovasiyalar üzrə Bakı Dövlət Peşə Təhsil Mərkəzi) tərəfindən 1995-ci ildə Səfərova Sevil Xasay qızına verilmiş 0988124 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Tovuz rayon** Qaraxanlı kənd tam orta məktəbi 1997-ci ildə bitirmiş Əsədova (Mustafayeva) Şahnaz Nayıl qızına verilmiş A-026627 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bərdə rayon** Mirzəxan kənd tam orta məktəbi 2013-cü ildə bitirmiş İsmayılov Bəkir Nəriman oğluna verilmiş A-282088 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəb** tərəfindən 2007-ci ildə İbrahimova (Allahverdiyeva) İlahə Adil qızına verilmiş B-077608 nömrəli bakalavr diplomu və əlavəsi itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Dövlət İqtisad Universiteti** tərəfindən 1998-ci ildə Xankişiyev Emin Misirxan oğluna verilmiş A-015891 nömrəli bakalavr diplomu itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 126 nömrəli tam orta məktəbi 20.02.1991-ci ildə bitirmiş Məmmədova-Nikfam Leyla İzzət qızına verilmiş A-655966 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Cəbrayıl rayon** 4 nömrəli tam orta məktəbi 2017-ci ildə bitirmiş Şamilov Cəlal Adil oğluna verilmiş E-066124 nömrəli tam orta təhsuil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Müəllimlər İnstitutu Quba filialı** tərəfindən 2013-cü ildə Məmmədov Tural Aydın oğluna verilmiş A-001173 nömrəli bakalavr diplomu və əlavəsi itdiyi üçün etibarsız sayılır.

**Salyan rayon** Şorsulu kənd əsas məktəbin IX sinfini 2008-ci ildə bitirmiş Əliyev Rasim Asif oğluna verilmiş A-654564 nömrəli ümumi orta təhsil haqqında şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

**Balakən şəhər** 3 nömrəli tam orta məktəbi 2013-cü ildə bitirmiş İskəndərov Nail Vüsal oğluna verilmiş A-220822 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Salyan şəhər** 8 nömrəli tam orta məktəbi 2019-cu ildə bitirmiş Kərimova Səma Həmid qızına verilmiş E-239236 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı Plan İqtisad Texnikumu** (Azərbaycan Dövlət İqtisad Universiteti nəzdində Sosial-İqtisad Kollec) tərəfindən Nuriyeva (Cavadova) Zülfiyyə Firudin qızına verilmiş AB-II-062146 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Əli Bayramlı Pedaqoji Texnikumu** tərəfindən 2004-cü ildə Həmzəyeva Mətanət İsa qızına verilmiş BB-II-004693 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 187 nömrəli tam orta məktəbin IX sinfini 13.06.1992-ci ildə bitirmiş Abdullayeva Zülfiyyə Nadir qızına verilmiş A-825062 nömrəli ümumi orta təhsil haqqında şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

**Bakı 1 nömrəli Tibb Məktəbi** (indiki 1 nömrəli Tibb Kolleci) tərəfindən 2009-cu ildə Əliyeva İradə Qafar qızına verilmiş BB-II-095974 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 252 nömrəli məktəb-liseyi 20.06.2002-ci ildə bitirmiş Abdullayeva Əminə Seyfəli qızına verilmiş A-482359 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Dövlət İqtisad Universiteti** tərəfindən 2010-cu ildə Cavadova Zülfiyyə Firudin qızına verilmiş YB-013934 nömrəli Yenidənhazırlanma haqqında diplom itdiyi üçün etibarsız sayılır.

**Ü.Hacıbəyov adına Azərbaycan Dövlət Konservatoriyası** tərəfindən 1992-ci ildə Həsənova (Səfərova) Elmira Asif qızına verilmiş ЦВ-836423 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər 1 nömrəli İdman Liseyi** (277 nömrəli idman təmayüllü tam orta məktəbi) 2018-ci ildə bitirmiş Ağayev Ağa Hilal oğluna verilmiş E-143660 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** Səbail rayon 162 nömrəli tam orta məktəbi 23.06.2006-cı ildə bitirmiş Əmirsayadov Ülvi Famil oğluna verilmiş BN-302411 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Gəncə Dövlət Universiteti** tərəfindən 2012-ci ildə Musayev Qamət Zirəddin oğluna verilmiş B-236185 nömrəli bakalavr diplomu və əlavəsi itdiyi üçün etibarsız sayılır.

**M.Ə.Sabir adına Bakı Pedaqoji Məktəbi** (indiki ADPU-nun nəzdində Azərbaycan Dövlət Pedaqoji Kollec) tərəfindən 1982-ci ildə Ziyadova Mətanət Fəseh qızına verilmiş DT-I-770159 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Astara şəhər** 1 nömrəli tam orta məktəbi 2011-ci ildə bitirmiş Quliyev Məmmədəli Şəmsəddin oğluna verilmiş A-039427 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Beyləqan rayon** Xalac kənd kənd tam orta məktəbin IX sinfini 2003-cü ildə bitirmiş Şıxaliyeva Xəyalə Valeh qızına verilmiş B-617917 nömrəli ümumi orta təhsil haqqında şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** Novruzov Qardaşları adına 36 nömrəli tam orta məktəbi 18.07.2012-ci ildə bitirmiş İmanov Sənan Pərviz oğluna verilmiş A-191796 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Astara rayon** Ərçivan qəsəbə 3 nömrəli tam orta məktəbi 2013-cü ildə bitirmiş Ağayev Seyidağa Camal oğluna verilmiş A-277179 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Lerik şəhər** 2 nömrəli tam orta məktəbin IX sinfini 2014-cü ildə bitirmiş Mövlanova Aytac Tahir qızına verilmiş A-395366 nömrəli ümumi orta təhsil haqqında şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 64 nömrəli tam orta məktəbi 17.06.1999-cu ildə bitirmiş İsmayılova Samirə Yadigar qızına verilmiş A-293761 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**6 nömrəli Texniki Peşə Məktəbi** (indiki 12 nömrəli Bakı Peşə Liseyi ) tərəfindən 1983-cü ildə Mustafayev Əlixan Safa oğluna verilmiş 9371 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Dövlət Dəniz Akademiyası** tərəfindən 2018-ci ildə Abbasov Fuad Əzizağa oğluna verilmiş C-003384 nömrəli bakalavr diplomu və diploma əlavə itdiyi üçün etibarsız sayılır.

**N.Nərimanov adına Azərbaycan Tibb Universiteti** tərəfindən 1992-ci ildə Şiran İlya İosifoviçə verilmiş УВ-I-114399 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Astara rayon** Ərçivan qəsəbə 4 nömrəli tam orta məktəbi 2000-ci ildə bitirmiş Məmmədov Murad Mirzəhüseyn oğluna verilmiş A-405334 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Sumqayıt şəhər** 29 nömrəli tam orta məktəbin IX sinfini 1993-cü ildə bitirmiş Yaradanquliyev Elçin Dilqəm oğluna verilmiş A-050082 nömrəli ümumi orta təhsil haqqında şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Beynəlxalq Universiteti** tərəfindən 2005-ci ildə Eldarova Vüsalə Vacib qızına verilmiş B-056606 nömrəli bakalavr diplomu itdiyi üçün etibarsız sayılır.

**Göyçay şəhər** 3 nömrəli tam orta məktəbi 1998-ci ildə bitirmiş Quliyeva Elnarə Bəxtiyar qızına verilmiş A-257721 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Masallı rayon** Böyük Kolatan kənd S.Rzayev adına tam orta məktəbin IX sinfini bitirmiş Hüseynova Məhbubə Mübariz qızına 20.06.2012-ci ildə verilmiş 241230 nömrəli əsas təhsil haqqında şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

**Füzuli rayon** Kərimbəyli kənd tam orta məktəbi 17.05.2005-ci ildə bitirmiş Həsənov İbrahim Məzahir oğluna verilmiş 204997 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**11 nömrəli Texniki Peşə Məktəbi** (Emal Sənayesi üzrə Bakı Dövlət Peşə Təhsil Mərkəzi) tərəfindən 30.06.1994-cü ildə Abbasov Murad Qürbət oğluna verilmiş B-0960477 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Biləsuvar rayon** Nərimankənd kənd tam orta məktəbi 1995-ci ildə bitirmiş Nağıyev Şamil Müzəffər oğluna verilmiş A-551128 nömrəli şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

**12 nömrəli Bakı Peşə Liseyi** tərəfindən (Emal Sənayesi üzrə Bakı Dövlət Peşə Təhsil Mərkəzi) 28.07.2006-cı ildə Mütəllimova Sərminaz Eytibar qızına verilmiş BB-016860 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Cəlilabad şəhər** 1 nömrəli Humanitar və təbiət fənlər təmayüllü məktəb-liseyi 2009-cu ildə bitirmiş Əlizadə (Hüseynli) Hüseyn İntiqam oğluna verilmiş A-647246 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Lerik rayon** Pirasora kənd tam orta məktəbi 2004-cü ildə bitirmiş Hüseynov Taleh Saleh oğluna verilmiş B-057679 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 158 nömrəli tam orta məktəbi 18.06.2005-ci ildə bitirmiş Qafarova Nurlanə (Osma) Adıgözəl qızına verilmiş B-120547 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 39 nömrəli tam orta məktəbi 15.06.2017-ci ildə bitirmiş Xəlilov Ümid Elşən oğluna verilmiş E-003177 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Qərbi Kaspi Universiteti** tərəfindən 2019-cu ildə Fərəcova Ruhəngiz Raqif qızına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

**Lənkəran rayon** Haftoni qəsəbə tam orta məktəbin IX sinfini 1994-cü ildə bitirmiş Hüseynova (Zeynalova) Vəsilə Arif qızına verilmiş A-569906 nömrəli ümumi orta təhsil haqqında şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

**Lənkəran rayon** Havzava kənd tam orta məktəbi 2019-cu ildə bitirmiş Quluzadə Nemət Rəfail oğluna verilmiş E-215789 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 148 nömrəli tam orta məktəbi 25.06.2011-ci ildə bitirmiş Məmmədov İlkin Həsən oğluna verilmiş A-016474 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**17 nömrəli Bakı Peşə Liseyi** (Emal Sənayesi üzrə Bakı Dövlət Peşə Təhsil Mərkəzi) tərəfindən 14.06.2016-cı ildə Qasımzadə Azər Abid oğluna verilmiş A-493763 nömrəli attestat, A-084726 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Dövlət İqtisad Universiteti** tərəfindən 2014-cü ildə Əvəzzadə Anar Kamil oğluna verilmiş A-035641 nömrəli bakalavr diplomu və əlavəsi itdiyi üçün etibarsız sayılır.

**Göyçay Dövlət İdarəetmə və Texnologiya Kolleci** tərəfindən 2005-ci ildə Atayeva Xəyalə Ağalar qızına verilmiş BB-II-041595 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Göyçay Dövlət İdarəetmə və Texnologiya Kolleci** tərəfindən 2006-cı ildə Hüseynov Gündüz Günəş oğluna verilmiş BB-II-038807 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Füzuli rayon** Böyük Bəhmənli kənd 1 nömrəli tam orta məktəbin IX sinfini 2000-ci ildə bitirmiş Ələkbərova Nərminə Novruz qızına verilmiş 324350 nömrəli ümumi orta təhsil haqqında şəhadətnamə və 2002-ci ildə verilmiş 595824 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Yevlax rayon** Salahlı kənd tam orta məktəbi 1997-ci ildə bitirmiş Xəlilov Nofəl Asif oğluna verilmiş A-070313 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Yevlax şəhər** N.Nərimanov adına 9 nömrəli tam orta məktəbi 1988-ci ildə bitirmiş Hüseynov Namiq Tofiq oğluna verilmiş 002304 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Sumqayıt Dövlət Universiteti** tərəfindən 2018-ci ildə Hüseynova Arzu Adil qızına verilmiş C-002365 nömrəli bakalavr diplomu və əlavəsi itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər 1 nömrəi İdman Liseyi** (277 nömrəli idman təmayüllü tam orta məktəb) 2013-cü ildə bitirmiş Hüseynli Zaur Akif oğluna verilmiş AN-203060 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

# BMU əməkdaşları İNHA Universitetində keçiriləcək təlimdə iştirak edəcək



Bakı Mühəndislik Universitetinin (BMU) professor-müəllim heyəti Cənubi Koreyanın İNHA Universitetində 11 iyul - 19 avqust tarixlərində keçiriləcək 6 həftəlik təlimdə iştirak edəcəklər. Təlimin əsas məqsədi BMU ilə İNHA Universiteti arasında icra olunan ikili diplom proqramına (İDP) əsasən qarşılıqlı təcrübə mübadiləsini reallaşdırmaq, BMU-nun professor-müəllim heyəti üçün xüsusi təhsil proqramını təmin etmək, onların bilik və bacarıqlarının adıçəkilən universitetin təhsil təcrübəsi, həmçinin təcrübəli professorları vasitəsilə daha da inkişaf etdirilməsinə nail olmaqdır. İlk təlim “İnformasiya texnologiyaları” ixtisası üzrə tədrisi həyata keçirən müəllimlər üçün nəzərdə tutulub.

Bununla əlaqədar BMU-nun rektoru, professor Havar Məmmədov təlimdə iştirak edəcək müəllimlərlə (Etibar Seyidzadə, Asif Qanbayev, Əhməd Əhmədzadə, Əli Həsənov, Gülbikə Zahidova, Xəyalə İbrahimova, Rasim Mahmudov) görüşüb.

Rektor Prezident cənab İlham Əliyevin rəhbərliyi ilə təhsil sahəsində davam etdirilən islahatlar, ölkədə ali təhsil sisteminin beynəlxalq standartlar səviyyəsinə yüksəldilməsi istiqamətində gerçəkləşdirilən tədbirlər və qəbul olunan müvafiq dövlət proqramlarından danışıb. Bu gün ölkədə təhsil sahəsində yaradılan şəraitin gənclərə, o cümlədən təhsil arzusunda olan hər kəsə sonsuz imkanlar yaratdığı, Azərbaycan vətəndaşına dünyanın ən nüfuzlu ali təhsil müəssisələrində təhsil almaq hüququ qazandırdığı vurğulanıb.

Havar Məmmədov Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə təsdiq edilmiş “2019-2023-cü illər üçün Azərbaycan Respublikasında ali təhsil sisteminin beynəlxalq rəqabətliliyinin artırılması üzrə Dövlət Proqramı” çərçivəsində BMU ilə İNHA Universiteti arasında icra olunan ikili diplom proqramının əsas komponentlərindən birinin proqram üzrə professor-müəllim heyəti üçün Koreyada təlimin keçirilməsi olduğunu vurğulayıb.

Dövlət Proqramının əsas hədəfləri sırasında ali təhsil sisteminin məzmun və keyfiyyət göstəricilərinin beynəlxalq ikili diplom proqramları ilə müasirləşdirilməsinin yer aldığını önə çəkən rektor bu baxımdan BMU ilə İNHA arasında həyata keçirilən proqramın tələbələrə müstəsna üstünlüklər verdiyini, 4 ixtisas (İnformasiya texnologiyaları, İnşaat mühəndisliyi, Elektrik mühəndisliyi, Elektronika mühəndisliyi) üzrə ikili diplomun onlar üçün unikal və tarixi fürsət olduğunu diqqətə çatdırıb.

Təhsil sahəsində ölkələrarası qarşılıqlı təcrübə mübadiləsinin faydalarından da danışan rektor Koreyada təşkil olunacaq təlimin BMU-nun tədris prosesinə töhfə verəcəyinə ümidvar olduğunu söyləyib.

BMU-İNHA İDP-nin direktoru Humay Cəfərli proqram çərçivəsində aparılan işlərdən söz açıb, eyni zamanda təlimin təşkili, istiqamətləri və nəticələri haqda ətraflı məlumat verib.

Proqramın idarə edilməsi üzrə bölmə rəhbəri Hyunjin Yang Koreyaya ilk dəfə səfər edənlərin bilməli olduğu zəruri informasiyaları nəzərə çatdırıb, onları fərqli mədəniyyətlər baxışından öz ölkəsinin adət və ənənələri ilə tanış edib. Layihə direktoru səfər müddətində müəllimlər üçün nəzərdə tutulan tədbirlər haqda da məlumat verib.

Görüşdə o da qeyd edilib ki, uğurla icra olunan BMU-İNHA ikili diplom proqramına bakalavriat səviyyəsi üzrə artıq 2 qəbul həyata keçirilib, hazırda isə 3-cü qəbul üzrə onlayn qeydiyyat prosesi davam etməkdədir. Bu prosesin 10 avqust 2022-ci il saat 23:55-də yekunlaşması planlaşdırılır.

Sonda rektor Koreyaya ezam olunacaq professor-müəllim heyətinə zəruri tapşırıq və tövsiyələrini verib, onlara uğurlar arzulayıb.

# Mingəçevir Dövlət Universitetində İctimai Nəzarət Şurasının üzvləri ilə görüş keçirilib

2022-ci ilin 6 iyul tarixində Mingəçevir Dövlət Universitetinin (MDU) rektoru Şahin Bayramov İctimai Nəzarət Şurasının üzvləri ilə görüşüb.



Görüşdə 2021-2022-ci tədris ilində MDU-da görülən işlər və əldə olunan nəticələrdən bəhs edilib, perspektiv fəaliyyətlər barədə fikir mübadiləsi aparılıb.

Pandemiyanın davam etməsi səbəbindən respublikamızda ənənəvi təhsilin müəyyən məhdudiyyətlərlə bərpa olunduğunu diqqətə çatdıran rektor Ş.Bayramov MDU-da tədris və təlim-tərbiyə prosesinin mövcud qaydalara əsasən təşkil edildiyini bildirib. Dövlətin ali təhsilə yüksək diqqət və qayğısı, tərəfdaşların dəstəyi və universitet kollektivinin əməyi sayəsində cari tədris ilinə uğurla yekun vurulduğunu qeyd edən rektor bununla bağlı minnətdarlığını ifadə edib.

Universitetin potensialının gücləndirilməsi və kadr hazırlığının keyfiyyətinin yüksəldilməsi məqsədilə həyata keçirilən tədbirlərdən söhbət açan Ş.Bayramov müvafiq dövlət qurumları və özəl sektor ilə işbirliyinin, yerli və xarici ölkələrin qabaqcıl ali təhsil müəssisələri ilə əməkdaşlığın, regionda yerləşən peşə və ümumtəhsil məktəbləri ilə birgə fəaliyyətlərin mövcud vəziyyətindən və qarşılıqlı faydalılığından bəhs edib. Bildirib ki, hesabat dövründə MDU-da ilk dəfə olaraq Türkiyənin nüfuzlu ali təhsil müəssisələrindən olan Qazi Universitetinin iki professorunun fəaliyyət göstərməsi, universitetin səkkiz əməkdaşının qardaş ölkənin qabaqcıl universitetlərində və onlarla tələbələrin tərəfdaş sənaye müəssisələrində təlim-təcrübə proqramlarına cəlb edilməsi sözügedən beynəlxalq və yerli əməkdaşlıqda yeni formalaşan müsbət tendensiyalardandır.

Cari tədris ilində elm və innovasiya fəaliyyəti istiqamətində görülən işlər və baş verən müsbət dəyişikliklər barədə məlumat verən rektor MDU tarixində ilk elmi jurnal olan “Dayanıqlı inkişaf” adlı multidisiplinar elmi jurnalın işıq üzü gördüyünü və artıq üçüncü buraxılışının nəşrə hazır olduğunu, ilk beynəlxalq konfransın keçirildiyini və nüfuzlu beynəlxalq konfranslara tərəfdaşlıq edildiyini, ilk tədqiqat mərkəzinin və iki laboratoriyanın yaradıldığını xüsusi vurğulayıb. Qeyd edib ki, son dövrdə MDU-da elmi fəaliyyətin təşviqi, səmərəliliyi və nəticəyönümlüyünün artırılması istiqamətində yaradılan imkanlar sayəsində universitetin nüfuzlu beynəlxalq nəşrlərdə məqalələri çap olunan, beynəlxalq və respublika səviyyəli konfranslarda fəal iştirak edən, dissertasiya işlərini uğurla müdafiə edən akademik heyət üzvlərinin sayı əhəmiyyətli dərəcədə artıb. Tələbələrin hərtərəfli inkişafına və startap fəaliyyətlərində aktiv iştirakına müvafiq dəstəyin göstərildiyini diqqətə çatdıran Ş.Bayramov MDU-nun “TEKNOFEST Azərbaycan” festivalınının final mərhələsində 3 komanda ilə uğurla təmsil olunmasından, respublika səviyyəsində keçirilən müxtəlif yarışlarda və hakatonlarda əldə edilən nailiyyətlərdən söhbət açıb.

Təhsil naziri Emin Əmrullayevin MDU-ya gəlişini universitetə göstərilən diqqət və dəstəyin ifadəsi, eləcə də əldə edilən uğurların məntiqi nəticəsi kimi dəyərləndirən rektor ziyarət çərçivəsində nazirin MDU-da Kiber Təhlükəsizlik Laboratoriyasının açılışında, magistrantların “Poster Sessiyası”nda və “Məzun Günü 2022” tədbirində iştirakını, yeni kampus üçün ayrılmış əraziyə baxış keçirməsini və kollektiv üzvləri ilə görüşünü universitet üçün əlamətdar hadisə kimi qiymətləndirib.

Hazırda dövlətin hərtərəfli dəstəyi ilə universitetin müasir tələblərə cavab verən yeni kampusunun yaradılması istiqamətində müvafiq işlərin uğurla davam etdiyini vurğulayan Ş.Bayramov yaxın gələcəkdə mövcud infrastrukturun genişlənməsi və modernləşməsi sayəsində MDU-nun yeni dövrün universitetinə çevrilməsi yolunda qarşıya qoyduğu hədəflərə doğru sürətlə irəliləyəcəyinə əminliyini bildirib.

Sonra MDU-nun İctimai Nəzarət Şurasının üzvləri çıxış edərək son dövrdə universitetin müasirləşdirilməsi və milli ali təhsil xəritəsində mövqeyinin gücləndirilməsi sahəsində görülmüş işlərdən məmnunluqlarını ifadə edib, universitet qarşısında duran vəzifələrin səmərəli icrası ilə bağlı fikir mübadiləsi aparıb və müvafiq təkliflər səsləndiriblər.

# Hökumətlərarası Təqaüd Proqramını qazananlar

Qloballaşmanın gətirdiyi yenilik və üstünlüklər təhsil sahəsindən də yan keçməyib. Təhsil sistemində yaranan innovasiyalar təhsilalanların imkanlarını da genişləndirir. Xüsusilə, xaricdə təhsilini davam etdirmək, bilik və bacarıqlarını, təcrübələrini artırmaq istəyən gənclərin sayı çoxalmaqdadır. Hökumətlərarası Təqaüd Proqramı (HTP) hər il tələbələrə dövlət hesabına təhsil almaq şansını verir. Belə ki, 2022-2023-cü tədris ili üzrə 149 nəfər Azərbaycan vətəndaşı bu proqram çərçivəsində Macarıstanın nüfuzlu universitetlərində təhsil almaq inkanı əldə edib. Təqaüd proqramı Təhsil Nazirliyi ilə Macarıstanın Xarici İşlər və Ticarət Nazirliyi arasında 6 yanvar 2021-ci il tarixində imzalanmış 2021-2023-cü illər üçün “Stipenium Hungaricum” proqramı çərçivəsində əməkdaşlıq haqqında Anlaşma Memorandumuna əsasən həyata keçirilib. Macarıstan tərəfindən verilən yekun qərarın nəticəsi olaraq 11 nəfər bakalavriat, 130 nəfər magistratura və 8 nəfər isə PhD səviyyələri üzrə müxtəlif təhsil müəssələrində təhsil almaq hüququ əldə ediblər. Təqaüdə layiq görülən tələbələr Macarıstanın nüfuzlu “Budapest University of Technology and Economics”, “Budapest Business School - Universityof Applied Sciences”, “Corvinus University of Budapest” və digər təhsil müəssisələrində turizm, iqtisadiyyat, biznes və idarəetmə, mühəndislik, İT, texnologiyalar, təbiət elmləri və davamlı inkişaf istiqamətləri üzrə təhsillərini davam etdirəcəklər.


Gülər Hüseynzadə


Nuran Ramazanova


Şərqiyyə Abbasova


Fidan İbadova

## 149 nəfər Azərbaycan vətəndaşı Macarıstanın nüfuzlu universitetlərində təhsil almaq inkanı əldə edib

*Macarıstanın “Eötvös Lorand University”nin “Təhsilin idarə olunması” ixtisası üzrə magistr tələbəsi Fidan İbadova:* - 2017-ci ildə Xəzər Universitetinin “Tarix müəllimliyi” ixtisasına qəbul olmuş və 2021-ci ildə universiteti fərqlənmə diplomu ilə bitirmişəm. Bacım Ləman isə Azərbaycan Dillər Universitetinin “Xarici dil müəllimliyi” ixtisasında təhsil alıb. Universitetin 2-ci kursundan başlayaraq bacımla birlikdə xaricdə təhsil proqramları, beynəlxalq layihələrlə maraqlanmağa başladıq. Ancaq əsas məqsədimiz magistr təhsilini xaricdə almaq və beynəlxalq təcrübə qazanmaq idi.

Hökumətlərarası Təqaüd Proqramı ilə də məhz bu ərəfələrdə tanış olduq. Təqaüd proqramına Çin, Latviya, Macarıstan, Qazaxıstan, Ruminiya, Rusiya, Tacikistan və s. kimi ölkələr aid idi. Bu ölkələrdən sadəcə birinin seçməli idik, oxumaq istədiyimiz sahə isə təhsil sahəsi idi. Universitetlərinin təhsil sahəsində daha çox inkişaf vəd etdiyini və bu sahədə daha çox təcrübəsi olduğunu düşündüyümüzə görə seçimimiz Macarıstan oldu.

Müsahibə zamanı Azərbaycan tarixi, Macarıstan-Azərbaycan əlaqələri, seçdiyimiz ixtisas, Azərbaycanda hazırda təhsildə mövcud olan problemlər və onların həlli yolları ilə bağlı suallar verildi. Azərbaycanda bacımla universitetə demək olar ki, eyni balla qəbul olmuşuq. Nəticələr elan olunanda hər ikimiz çox sevindik, çünki məktəbdə də 11 il sinif yoldaşı olmuşuq və magistr təhsilimizi də birlikdə Eötvos Lorand Universitetində “Təhsilin İdarə olunması” ixtisasında davam edəcəyik. Düzü, ilk müraciət etdiyimiz vaxt düşünürdük ki, ikimizdən təkcə birimiz seçilərik, ancaq fikrimcə, həm müsahibə, həm də seçim zamanı hər namizədə fərdi yanaşılıb. Bütün proseslərdə atam və anam hər zaman bizə dəstək olub, müsahibələr ərəfəsində hər zaman motivasiya verməyə çalışıblar.

Magistr pilləsini tamamladıqdan sonra Azərbaycana qayıdıb təhsil sahəsində işləməyi düşünürük. Mənim əsas məqsədim qazanacağım beynəlxalq təhsil təcrübələrini ölkəmizdə tətbiq etmək, ucqar kəndlərdə təhsil şəraitinin yaxşılaşdırılması və xüsusilə qızların təhsilinə dəstək üçün işlər görməkdir.

*Budapest Business School - Universityof Applied Sciences-nin “Turizm” ixtisası üzrə magistr tələbəsi Şərgiyyə Abbasova:* - İlk növbədə, qeyd etmək istərdim ki, Hökumətlərarası Təqaüd Proqramlarının olması çox önəmli və təqdirəlayiq addımdır. Hər il yüzlərlə tələbə bu proqramlar sayəsində müxtəlif ölkələrdə təhsil alırlar. Bu il bu şansı qazandığım və təhsilimi Macarıstanın paytaxtında davam etdirəcəyim üçün özümü şanslı və çox xoşbəxt hiss edirəm. İnanıram ki, seçdiyim universitet öz ixtisasım üzrə ixtisaslaşmağıma çox kömək edəcək. Seçdiyim universitet Macarıstanda biznes məktəbləri arasında 1-ci, Avropada isə 33-cü yerdədir. Turizm Azərbaycanda ən çox gəlir gətirən sahələrdən biridir və bu sahənin inkişafı üçün böyük imkanlar mövcuddur. Gələcəkdə təhsilimi bitirdikdən sonra öz ölkəmdə xüsusilə də azad olunmuş torpaqlarda turizmin inkişafında aktiv şəkildə fəaliyyət göstərməyi planlayıram.

*Eötvös Lorand University-nin “Təhsilin idarə olunması” ixtisası üzrə magistr tələbəsi Gülər Hüseynzadə:* - Hələ orta məktəbdən aktivliyim və dərsdənkənar fəaliyyətlərə marağımla seçilirdim. Bunu bakalavr illəri ərzində davam etdirərək ilk kurslarda universitet daxili klublarda iştirak edir, müxtəlif layihələrin təşkilində yer alırdım.

Xaricdə təhsil ilə bakalavr təhsilim müddətindən maraqlanmağa başladım. Tam qərarı verməyimdə isə 2019-cu ildə Slovakiyada iştirak etdiyim beynəlxalq layihənin böyük rolu oldu. Lyihədə iştirak etdiyim 6 həftə müddətdə assistant müəllim olaraq bağçada uşaqlarla məşğul olurdum. Azyaşlıların dünyasını görmə, birbaşa onlarla məşğul olmaq məni təhsilimi xaricdə davam etdirməyim üçün daha çox həvəsləndirdi. Xaricdə magistr təhsili ilə maraqlandıqca əsas fikir verdiyim nöqtələrdən biri proqram müddətində keçilən dərslər və sahə olaraq spesifik olması idi. Proqramın üstünlükləri, tələbələr üçün yaratdığı fürsətlər də seçimimin bu universitet olmasını konkretləşdirdi.

*Budapest University of Technology and Economics-nin “Memarlıq” ixtisası üzrə magistr pilləsinin tələbəsi Nuran Ramazanova:* - Macarıstanla bağlı araşdırmalar etməyi elə universitetdə oxuduğum müddətdə başlamışam. Bakalavr təhsilimi aldığım zaman artıq qarşıma məqsəd qoymuşdum ki, magistr təhsilimi xaricdə davam etdirəcəyəm. Sadəcə ölkə seçməkdə qərarsız idim. Macarıstan memarlığı universitetdə oxuduğum müddətdən məni özünə heyran buraxmışdı. Xüsusilə, Macarıstan memarlarının öz işləri və Avropanın ən böyük və ilk memarlıq abidələrini gedib yaxından görə bilmək imkanı məndə daha da böyük həvəs yaratdı. Bundan əlavə, bakalavr təhsilimi alanda qardaşım HTP ilə artıq Macarıstanda bakalavr təhsili almağa getmişdi və onun ölkə, yüksək təhsili ilə bağlı fikirləri, eləcə də, çoxmillətli, müasir bir ölkə olduğunu, burda dünyanın bir çox yerindən özünə rahatlıqla dost tapa bilmək imkanını, bir tələbə üçün yaşam şəraitinin uyğun olduğunu qeyd edirdi. Qısası, Macarıstanı seçməyimdə qardaşımın müsbət fikirləri də qərarımı qətiləşdirdi. Əsas məqsədim odur ki, orada öyrənəcəyim macar memarlığı üslubunu və həmçinin, daha yaxında öyrənəcəyim Avropa memarlıq üslubunu Azərbaycan memarlığı ilə inteqrasiya etdirib ölkəmdə davamlı və dayanıqlı tikinti və tikinti layihələrini təmin etməkdir. Eyni zamanda da bu yeni üslublarla həm Macarıstan, həm də Azərbaycan memarlığını dünyaya tanıtmaqdır.

Hər bir tələbəni təbrik edir, gələcək fəaliyyətlərində uğurlar arzulayırıq. Ümid edir və inanırıq ki, gənclərimiz birlik olub dövlətimizin yaratdığı bu imkanlardan yararlanacaq və ölkəmizin inkişafı, rifahı üçün öz səylərini, güclərini səfərbər edəcəklər.

**Tünzalə QULİYEVA**